AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 27 (1487), 17 - 23 avqust 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## *Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının idmançılarını və onların məşqçilərini həvəsləndirmək məqsədilə **qərara alıram:**

1. Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında əldə etdikləri yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. ikinci yeri tutan hər bir idmançıya 200 000 (iki yüz min) manat, onun məşqçisinə 100 000 (yüz min) manat;

1.2. üçüncü yeri tutan hər bir idmançıya 100 000 (yüz min) manat, onun məşqçisinə 50 000 (əlli min) manat.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 12 avqust 2021-ci il*

## *Azərbaycan Milli Olimpiya komandası üzvlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

XXXII Tokio Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə Azərbaycan idmançılarının aşağıda adları çəkilən məşqçiləri "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Abdullayev Namiq Yədulla oğlu

Başirov Yaşar Eyyub oğlu

Məmmədov Rəşad Nizami oğlu

Morozov Denis Valeryeviç

Tağıyev Qurban Vaqif oğlu.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 12 avqust 2021-ci il*

## *Azərbaycan Milli Olimpiya komandası üzvlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

XXXII Tokio Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə aşağıda adları çəkilən Azərbaycan idmançıları və onların məşqçiləri təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Stadnik Mariya Vasilyevna

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Ağayev Rəfael Mahir oğlu
Əliyev Hacı Azər oğlu
Zaretska İrina İqorevna

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Alfonso Dominguez Loren Berto Berto
Kindzerska İryna
Hüseynov Rafiq Radik oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Ağayev Aslan Loğman oğlu
Əzimzadə Elman Süleyman oğlu

**"Tərəqqi" medalı ilə**

Cəfərov Vüsal Səfa oğlu
Məmmədov Anar Vahid oğlu
Məmmədov Orxan Rasim oğlu
Musayev Füzuli İsa oğlu
Hüseynov Radik Rafiq oğlu
Tarakanov Aleksandr Petroviç
Horta Dominguez Humberto.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 12 avqust 2021-ci il*

## *"Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi Prezidentinin*

### Sərəncamı

Azərbaycan Respublikasının idmançıları və onların məşqçilərini Yaponiyanın Tokio şəhərində keçirilən XXXII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələr göstərməyə həvəsləndirmək məqsədilə,

1.XXXII Yay Olimpiya Oyunlarında ən yüksək nəticələrə görə Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1.İkinci yeri tutan hər bir idmançıya 100 min manat, onun məşqçisinə 50 min manat;

1.2.Üçüncü yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə 25 min manat;

1.3.Komandanın baş məşqçisi-idman növü üzrə ən yüksək nəticə göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

2. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin maliyyə idarəsi sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti*

*Bakı şəhəri, 12 avqust 2021-ci il*

*Paralimpiya Oyunlarında iştirak edəcək milli komandamızın rəhbəri ilə görüş keçirilib* Səh. 2

Karate Paris-2024 Yay Olimpiya Oyunlarının proqramından çıxarılıb Səh. 2

*İFFHS: Azərbaycanda ən yaxşı 11 futbolçunu bir heyətdə topladı* Səh. 2

Tokio-2020-də qeydə alınanan rekordlar və "ilk"lər Səh. 4

İrina Zaretska: "Qızıl medal üçün 1 saniyə çatmadı" Səh. 5

Azərbaycan Premyer Liqasında yeni mövsüm başladı Səh. 7

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik* **olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



## Paralimpiya Oyunlarında iştirak edəcək milli komandamızın rəhbəri ilə görüş keçirilib




Azərbaycan Milli Paralimpiya Komitəsində (AMPK) Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında iştirak edəcək milli komandamızın rəhbəri (şef de-mission) və onun müavinləri ilə görüş keçirilib. AMPK-dan "Olimpiya dünyası" qəzetinə verilən məlumata görə, görüşdə iştirak edən komitənin prezidenti İlqar Rəhimov missiya rəhbəri və müavinlərə müvafiq tapşırıqlar verib və onlara uğurlar arzulayıb. Tokio-2020 XVI Yay Paralimpiya Oyunlarında Azərbaycan milli komandasının missiya heyəti gənclərdən formalaşdırılıb. Şef-de mission Rauf Mürsəlov, onu müavinləri isə Elxan Rəhimov, Azər Tapdıqov və Leyli Yusifli təyin edilib. Qeyd edək ki, Azərbaycan paralimpiyaçıları Tokio-2020-ə 36 lisenziya qazanıb. Bu, ötən paralimpiadalarla müqayisədə rekord göstəricidir. Onlardan 12-si paraatletika, 11-i paracüdo, 4-ü parataekvondo, 4-ü pouerliftinq, 3-ü üzgüçülük və 2-si güllə atıcılığı növündədir. Paralimpiya Oyunları 24 avqust - 5 sentyabrda keçiriləcək.

## Azərbaycan Kikboksinq Federasiyasında yeni təyinat



Azərbaycan Kikboksinq Federasiyasında (AKF) yeni təyinat olub. Federasiyanın İdarə Heyətinin üzvü Ədalət Kazımov Azərbaycan Kikboksinq Federasiyasının vitse-prezidenti təyin olunub. Eyni zamanda, bu günlərdə AKF-nin birinci vitse-prezidenti təyin olunmuş WAKO dünya çempionu Rəmal Aslanovun təyinatı rəsmiləşdirilib. Federasiyanın yeni vitse-prezidentlərin vəsiqələri AKF-nin fəxri prezidenti, İdarə Heyətinin sədri olan Milli Məclisin sədr müavini Adil Əliyev və Azərbaycan Kikboksinq Federasiyasının prezidenti Orxan Əliyev tərəfindən təqdim olunub. Yeni təyin olunmuş vitse-prezidentlər Ədalət Kazımov və Rəmal Aslanov ölkəmizdə kikboksinq idman növünün inkişafında, bu məsuliyyətli və eyni zamanda şərəfli yolda əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

## Karate Paris-2024 Yay Olimpiya Oyunlarının proqramından çıxarılıb



Karate idman növü 2024-cü ildə Parisdə təşkil olunacaq XXXIII Yay Olimpiya Oyunlarının proqramından çıxarılıb. Həmçinin, softbol və beysbol da idman növləri sırasından çıxarılıb. Əvəzində yeni yarış növü kimi breykdans əlavə edilib. Bu barədə yarışın Təşkilat Komitəsi məlumat yayıb. Bildirilib ki, bu qərar Beynəlxalq Olimpiya Komitəsinin müəyyən etdiyi qaydalar çərçivəsində qəbul olunub və dəyişdirilə bilməz. Qeyd edək ki, Paris Olimpiadası 2024-cü il iyulun 26-dan avqustun 11-dək təşkil olunacaq.

## *Karateçilərimiz Tampereyə yollanır*

Yeniyetmə və gənc karateçilərimiz avqustun 20-22-də Finlandiyanın Tampere şəhərində Avropa çempionatında iştirak edəcəklər. Qitə çempionatında federasiyanın prezidenti Yaşar Bəşirovun rəhbərlik etdiyi milli komandanın heyətində müxtəlif yaş qrupunda 28 karateçi yer alıb.

Turnirə kumite üzrə yeniyetmə və gənclərin baş məşqçisi Anar Allahverdiyev, böyük məşqçilərdən Seymur Xudaverdiyev, Nağı Mehdiyev, Şahin Atamov, Niyazi Əliyev və Anar Əhmədov (kata) yollanır.

Beynəlxalq hakimlər Cahangir Babayev, Şahin Xudaverdiyev, Vüqar Kərimov və Mais Mədətov yarışın hakimləri arasında olacaq. Hakimlərdən dərəcəsini artırmaq üçün M.Mədətov, beynəlxalq kateqoriya almaq üçün isə Vüsal İsrafilov və Seymur Məmmədov Avropa Karate Federasiyasının (EKF) Hakimlər komitəsinə imtahan verəcəklər.

Yeniyetmə və gənclərin 48-ci, 21 yaşadək gənclərin isə 13-cü Avropa çempionatında 45 ölkədən 1008 idmançı mübarizə aparacaq.

## İFFHS: Azərbaycanın ən yaxşı 11 futbolçusu bir heyətdə




Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) bütün zamanların ən yaxşı "11-liy"ini müəyyənləşdirib. Siyahıda Azərbaycanın da adı var. Belə ki, ölkəmizin futbol tarixinin rəmzi komandası 4-2-4 sistemi ilə tərtib olunub.

Heyətdə müxtəlif illərdə çıxış etmiş futbolçulardan Sergey Kramarenko (qapıçı), Rafiq Quliyev, Vladimir Bruxti, Vyaçeslav Semiqlazov, Yaşar Babayev (müdafiə), İqor Ponomaryov, Nazim Süleymanov (yarımmüdafiə), Kazbek Tuayev, Anatoli Banişevski, Ələkbər Məmmədov və Yuri Kuznetsov (hücum) yer alıblar.

## *Azərbaycan Ağır Atletika Federasiyası yenidən təşkil olunacaq*

Azərbaycan Ağır Atletika Federasiyası (AAAF) tamamilə yenidən təşkil olunacaq. AAAF-dan verilən məlumata görə, federasiyanın prezidenti Cahangir Əsgərov bu barədə müvafiq əmr imzalayıb. Əmrə əsasən, baş məşqçi Asif Məmmədov və baş katib Rizvan Rəsulov federasiyada tutduqları vəzifələrdən kənarlaşdırılıblar. Yenidən təşkil haqqında qərar federasiyanın vəzifəli şəxslərinin xidməti vəzifələrini keyfiyyətsiz yerinə yetirməsi ilə əlaqədar qəbul edilib. Rəhbərliyin vəziyyətin yaxşılaşdırılması ilə bağlı çoxsaylı tapşırıqlarına baxmayaraq, əməkdaşlar öz işlərinə səhlənkar yanaşmaqda davam ediblər. Federasiya işçilərinin məsuliyyətsiz münasibəti, eləcə də idmançılarımızın antidopinq qaydalarına məhəl qoymaması Beynəlxalq Ağır Atletika Federasiyası tərəfindən ciddi cərimə sanksiyalarının tətbiq edilməsinə səbəb olub. Təkcə son dövrdə Beynəlxalq və Avropa Ağır Atletika federasiyaları tərəfindən altı dəfə Azərbaycanın ağırlıqqaldıranlarının dopinqdən istifadə halları qeydə alınıb. "Atılan addımlar və görülən tədbirlər müsbət nəticəyə gətirib çıxarmayıb və vəziyyəti düzəltməyib. Bununla əlaqədar Azərbaycan Ağır Atletika Federasiyasının tamamilə yenidən təşkili haqqında qərar qəbul etmişəm. Ümid edirəm ki, bu dəyişikliklər gələcəkdə bizə daha yaxşı idman nəticələrinə nail olmaqda kömək edəcək", - deyə Cahangir Əsgərov bildirib. Onun sözlərinə görə, sentyabrın sonunadək federasiyaya yeni baş məşqçi və baş katib təyin ediləcək.

## Federasiya rəsmisi Vyanada plenar iclasda iştirak edib



Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi, Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə Heyətinin üzvü Cəlil Cəfərov qurumun plenar iclasında iştirak edib. CEV-in İdarə Heyəti yeni tərkiblə ilin üçüncü toplantısını Avstriyanın paytaxtı Vyanada keçirib.

İclasda cari ilin voleybolsevərlər üçün maraqlı olacağı qeyd edilib. Daha sonra hər kəsin böyük maraqla izlədiyi Tokio-2020 Yay Olimpiya Oyunlarından, çimərlik voleybolu üzrə qitə birinciliyindən və bir neçə gündən sonra start götürəcək Avropa çempionatından danışılıb. İclasda pandemiya dövrünün voleybola mənfi təsirlərindən və bununla bağlı mübarizə yollarından, həmçinin qarşıda duran planlardan da söhbət açılıb.

## Yeniyetmə cüdoçularımız yeni sınaq qarşısında

Bu gün Latviyanın paytaxtı Riqada yeniyetmələr arasında cüdo üzrə Avropa birinciliyinə start veriləcək. Bu mötəbər yarışda Azərbaycanı 10-u oğlan və 4-ü qız olmaqla 14 cüdoçu təmsil edəcək. Oğlanlar arasında Xəyal Həsənov, Babarəhim Mirzəyev (50 kq), İslam Rəhimov (55 kq), Zahir Ağazadə, Aydın Rzayev (60 kq), Qədir Hüseynov (66 kq), Məmmədrza Hacızadə, Toğrul İbrahimov (73 kq), İsmayıl Zamanov (81 kq) və Əlirza Şıxəlizadə (90 kq) qüvvələrini sınayacaqlar. Qızların yarışında isə Leyla Dəmirova, Fəridə Mirzəyev (44 kq), Könül Əliyeva və Aydan Vəliyeva (48 kq) medallar uğrunda mübarizə aparacaqlar. Yarış avqustun 19-dək davam edəcək.



Müsahibə

# Mövlud Mirəliyev:
# "Mən uğursuzluğa əsas səbəb kimi, psixoloji gərginliyi görürəm"

***Bu günlərdə Azərbaycan Cüdo Federasiyasının məşqçilər heyətində dəyişiklik oldu. Tokio-2020 Yay Olimpiya Oyunlarındakı uğursuzluqdan sonra komandanın məşqçilər heyəti istefaya göndərildi. Ötən həftə isə federasiyanın keçirilən iclasında komandaya yeni məşqçilər təyin olundu. Cüdo Federasiyasının vitse-prezidenti Sadıq Sadıqovun rəhbərliyi altında keçirilən iclasda Pekin-2008 Yay Olimpiya Oyunlarının və açıq dünya çempionatının bürünc mükafatçısı Mövlud Mirəliyev cüdo millimizin baş məşqçisi, Elçin İsmayılov, Elxan Rəcəbli, Şümşad Bəhramov, İlham Məmmədov və Zaur Babayev isə onun köməkçiləri təyin olundu. Bu günlərdə komandaya yeni baş məşqçi təyin olunan Mövlud Mirəliyevlə əlaqə saxladıq. Daha əvvəl də əsas yığmada məşqçilər heyətində yer alan Mövlud müəllim ona ünvanlanan suallarımızı cavablandırdı.***



***- Mövlud müəllim, bu yaxınlarda Azərbaycan Cüdo Federasiyasının məşqçilər heyətində yeni təyinatlar oldu. Bu təyinata əsasən, Sizə federasiya tərəfindən böyük etimad göstərilərək yığma komandanın baş məşqçi vəzifəsi həvalə olundu.***

- Bəli, Azərbaycan Cüdo Federasiyasının rəhbərliyi bizə etimad göstərərək belə bir məsul vəzifəyə təyin etdi. Bizə göstərilən etimada görə federasiya rəhbərliyinə minnətdarlığımı bildirirəm. Bu, çox məsuliyyətli bir yükdür. Məşqçilər heyətində yer alan hər birimiz məsuliyyətimizi yaxşı dərk edirik. Bizdən əvvəlki məşqçilər heyəti də kifayət qədər uğurlu nəticələr əldə ediblər. Onların zəhmətini danmaq olmaz. Çalışacağıq ki, bu etimadı doğruldaraq yaxşı nəticələr qazanaq.

***- Siz həm Afina və Pekin olimpiadalarında idmançı kimi, həm də Rio-2016 Yay Olimpiya Oyunlarında köməkçi məşqçi kimi komandanın tərkibində yer almısınız. Yaqin ki, bu təcrübə sizə işinizi doğru istiqamətdə qurmağa kömək olacaq.***

- Bəli, bundan əvvəl yığmada köməkçi məşqçi vəzifəsində çalışmışam. Həmin vaxtlarda kifayət qədər uğurlu nəticələrimiz olub. Rio Olimpiadasında komandamız iki gümüş medala sahib çıxmışdı. Bundan başqa cüdoçularımız bir sıra yarışlarda da uğurla çıxış etmişdilər. Təbii ki, məqsədimiz yenə də eynidir - yalnız irəli getmək və medallar qazanmaq. Tezliklə, komanda ilə məşqlərə başlayacağıq. Artıq Paris Olimpiadasına 3 ildən bir qədər də az vaxt qalıb. Çalışacağıq ki, əvvəlki təcrübəmizdən yararlanaraq bacardığımız qədər komandaya öz töhfəmizi verək.

***- Millidə əsasən nələrə üstünlük verəcəksiniz?***

- Olimpiya Oyunlarında iştirak edən idmançılarımıza hələ ki, bir müddət istirahət verilib. Tezliklə məşqlərə başlayacağıq. Bildiyiniz kimi, federasiya tərəfindən bundan sonra böyüklər və gənclərdən ibarət komandaların birlikdə məşq etməsi qərara alınıb. Biz eyni zamanda hər iki komandaya nəzarət edəcəyik. Gənclər arasında yetərincə perspektivli idmançılar var ki, qarşıdakı vaxtlarda onları əsas yığmaya cəlb edəcəyik. Belə gənclərin böyüklərlə birgə məşq edərək təcrübə qazanması və onların növbəti yarışlarda iştirak etməsi hazırlıq səviyyələrinin də artmasına böyük ölçüdə təkan verəcək. Hesab edirəm ki, federasiyanın qəbul etdiyi bu qərar təqdirəlayiqdir.

***- Belə çıxır ki, əsas yığma komandanın heyətində dəyişikliklər olacaq?***

- Əsaslı dəyişikliklər olmayacaq. Yığmada çıxış edən idmançılarımızın hər biri öz çəkisində favorit sayılırlar. Düzdür, ola bilər ki, hansısa idmançı karyerasını başa vursun. Məsələn, 66 kq çəki dərəcəsində çıxış edən Nicat Şıxəlizadə karyerasını başa vurdu. Təbii ki, bu yığmaya yeni perspektivli idmançıların gəlişinə yol açır. Bu gün bizim ağır çəki dərəcəsində müəyyən çətinliklərimiz var. Bildiyiniz kimi, bu çəki dərəcəsində əsasən, Uşangi Kokauri mübarizə aparır. Çalışacağıq ki, tədricən ağır çəkidə olan problemləri aradan qaldıraq. Gənclər arasında ən ağır çəkidə iştirak edən perspektivli idmançılarımız var. Məşqlər zamanı onların potensialını daha yaxından izləyərək seçimlər edəcəyik.

***- Yığmaya yeni təyin olunan baş məşqçi kimi, Tokio-2020-də cüdoçularımızın uğursuz çıxış etməsi ilə bağlı fikirləriniz maraqlı olardı.***

- Düzdür, mən onların arasında olmamışam. Buna görə də hansı problemin olduğunu dəqiq deyə bilmərəm. Amma fakt budur ki, komandanın tərkibində yer alan idmançılar olimpiadaya qədər yaxşı nəticələr göstəriblər. Rəhbərlik də onlar üçün hər cür şərait yaratmışdı. İstər təlim-məşq toplanışlarında, istərsə də yarışlarda komandanın iştirakı üçün hər cür şərait yaradılıb. Bir sözlə, federasiya onlar üçün heç nəyi əsirgəməyib. Olimpiada zamanı hiss olunurdu ki, idmançıların psixoloji vəziyyətləri o qədər də yaxşı deyil. Olimpiya Oyunlarının cüdo yarışlarında hər gün bir çəki dərəcəsində qaliblər müəyyənləşir. Ola bilər ki, yarışlar zamanı bu gün medalsız qalan cüdoçunun uğursuz çıxışı növbəti idmançıya da psixoloji təsir göstərib. Bu anları mən Afina və Pekin Yay Olimpiya Oyunlarında idmançı kimi yaşadığım üçün onları daha yaxşı başa düşürəm. Orada ilk olaraq 60 kq çəki dərəcəsində çıxış edən idmançılar mübarizəyə başlayırlar. Həmin çəkidə çıxış edən idmançı məğlub olanda sonrakı idmançılar daha çox həyəcan keçirirlər. Təbii ki, idmançıların bu uğursuz çıxışı məşqçiyə də təsir edir. Onlar belə bir yarışlarda idmançılardan mütləq nəticə gözləyirlər. İdmançılar isə belə hallarda özlərini psixoloji cəhətdən idarə edə bilmirlər. Hamı ondan medal gözlədiyi üçün idmançının üzərində böyük təziq olur. Amma bir məsələni qeyd edim ki, bir uğursuz nəticəyə görə yığmanın bütün idmançılarını komandadan uzaqlaşdırmaq da düzgün deyil. Bu idmançılar olimpiadaya qədər uğurla çıxış edərək, həmin yarışa lisenziya qazanıblar. Əgər onlar zəif olsa idilər, heç bu Oyunlara belə lisenziya qazana bilməzdilər. Onu da deyim ki, komandamız budəfəki Olimpiya Oyunlarına tam heyətlə yollanmışdı. Təəssüf ki, nəticə uğurlu alınmadı.

***- Bəs püşk amilində komandamızın şanssız olduğu fikrinə münasibətiniz necədir?***

- Təbii ki, püşkdən də çox şey asılıdır. Amma hər şeyi də püşkün üzərinə atmaq olmaz. Hər kəs bilir ki, Olimpiya Oyunları ən güclülərin iştirak etdiyi bir yarışdır. Burada zəif rəqib olmur. Bu nəhənglərin mübarizəsində isə mükafatçılar sırasına düşmək üçün ən güclülər ilə güləşib, onları məğlub etməlisən. İlk mərhələdə olmasa belə, sonrakı görüşlərdə ən güclü ilə mübarizə aparmalı olacaqsan. İdmançı püşkə baxmayaraq sona qədər güləşməli, istədiyi nəticəni əldə etməlidir. Ola bilər ki, püşk də müəyyən rol oynayıb. Amma mən uğursuzluğa əsas səbəb kimi, psixoloji gərginliyi görürəm.

*Azər Əlizadə*

## Zəfər Gününə həsr edilmiş respublika turniri keçirilib

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Məktəb İdmanları Federasiyasının dəstəyi və Bakı Karate-do Akademiyasının təşkilatçılığı ilə Lənkəran Olimpiya İdman Kompleksində Zəfər Gününə həsr edilmiş "Dəmir yumruq" birinci açıq respublika turniri keçirilib.

Bakı Karate-do Akademiyasından verilən məlumata görə, Nazirlər Kabinetinin karantin rejimi ilə əlaqədar tələb və tövsiyələrinə uyğun qaydada təşkil olunan yarışda Bakı, Sumqayıt, eləcə də 14-ə yaxın rayonu təmsil edən 20-yə yaxın komandanın heyətində 150 idmançı mübarizə aparıb.

Turnirin açılış mərasimində Bakı Karate-do Akademiyasının prezidenti Vüsal Abdullazadə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin elan etdiyi "Qarabağ Azərbaycandır və nida" şüarının müqəddəs Vətən torpağı uğrunda xalqımızın apardığı Vətən savaşının əsas qayəsi, qələbəyə səsləyən rəhbər çağırışı olduğunu böyük qürur hissi ilə bildirib. O, 44 gün davam edən Vətən müharibəsində qəhrəman oğullarımızın düşmənə sarsıdıcı zərbələr endirməklə onları əzəli torpaqlarımızdan əbədi qovduğunu bildirərək savaş meydanında əldə etdiyimiz tarixi Qələbənin ardınca Azərbaycanı daha böyük gələcək, daha firavan həyat gözlədiyini vurğulayıb: "Biz qələbəmiz üçün şəhidlərimizə, qazilərimizə və Müzəffər Ali Baş Komandana borcluyuq. Bu böyük qələbə ilə ölkəmiz bütün dünyaya sübut etdi ki, mübariz Azərbaycan xalqı əzəli torpaqlarının işğalı ilə barışmayacaq. Ordumuz həm düşməni məğlub etdi, həm də bölgədə qara ləkə olan erməni faşizmi məhv edildi. Yenilməz Azərbaycan Ordusuna eşq olsun! Qarabağ Azərbaycandır!".

Bu günün sağlam gəncinin dövlətimizin gələcəyi, işıqlı sabahımızın təminatçısı olduğunu bildirən V.Abdullazadə bu cür tədbirlərin mütəmadi olaraq təşkilinin vacibliyini qeyd edib.

Açılış mərasimindən sonra final qarşılaşmalarına start verilib. Finalda 45 kiloqram çəki dərəcəsində 13-14 yaşlı qızlar arasında kəmər uğrunda görüşlər keçirilib. Bakı Karate-do Akademiyasının yetirməsi Jasmin Xəlilova rəqiblərini üstələyərək döyüş kəmərini qazanıb.

Sonda 35 yaş dərəcəsində və müxtəlif çəki dərəcələrində qalib və mükafatçılar üzərində Zəfər Gününün rəmzi olan "Dəmir Yumruq" təsvirinin əks olunduğu xüsusi medal və diplomlarla təltif olunublar.

## Bilgəhdə çimərlik güləşi üzrə turnir keçirilib

Bilgəhdə çimərlik güləşi üzrə "Kings of sand" kuboku yarışları keçirilib. Yarış 4 çəki dərəcəsi üzrə təşkil olunub. Azərbaycan Güləş Federasiyası (AGF) və Su İdmanı Sarayının birgə təşkilatçılığı ilə keçirilən turnirdə ilk 3 yeri tutan güləşçilərə medal, diplom və pul mükafatları təqdim olunub. Görüşlər AGF Hakimlər Kollegiyasının sədri Qərib Əliyevin rəhbərliyi altında milli və beynəlxalq dərəcəli hakimlər tərəfindən idarə olunub. Çimərlik güləşi üzrə yığmanın baş məşqçisi Oyan Nəzəriani, məşqçi Ağahüseyn Mustafayev və yeniyetmələrdən ibarət millinin böyük məşqçisi Əsgərxan Novruzovun nəzarəti altında keçirilən yarışda Ruslan Abdullayev (50 kq), Rübail İbrahimli (70 kq), Fərid Cabbarov (80 kq) və İbrahim Yusubov (90 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.



## Şahmatçımızdan uğurlu nəticə

Azərbaycanın yeniyetmə şahmatçısı Cahandar Azadəliyev rapid üzrə Dünya Kubokunda seçmə mərhələnin qalibi olub. O, 12 yaşınadək şahmatçılar arasında onlayn formatda keçirilən yarışda bütün görüşlərini qələbə ilə başa vurub. 10 mümkün xaldan həmısını toplayan C.Azadəliyev final mərhələsinə vəsiqə qazanıb.



## Zəka sahiblərimiz Avropa çempionatında iştirak edəcəklər

Avqustun 26-da İslandiyanın paytaxtı Reykyavikdə kişilər arasında şahmat üzrə Avropa çempionatı start götürəcək. "Reykyavik Open-2021" adlanacaq qitə birinciliyində 35 ölkədən ümumilikdə 185 şahmatçı mübarizə aparacaq. Ölkəmizi Avropa çempionatında Nicat Abasov, Rauf Məmmədov, Vasif Durarbəyli, Nicat Məmmədov, Vüqar Əsədli, Aydın Süleymanlı və Read Səmədov təmsil edəcəklər. Qitə birinciliyi sentyabrın 5-dək davam edəcək.



## "Könüllülər Kuboku" yarışının qalibləri müəyyənləşib



Gənclər və İdman Nazirliyinin, Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin təsdiqlədiyi birgə Əsasnaməyə əsasən, Şəmkir Olimpiya İdman Kompleksində mini futbol üzrə Respublika "Könüllülər Kuboku" yarışının final mərhələsi keçirilib.

İctimai Birlikdən verilən məlumata görə, yarışın açılış mərasimində Gənclər və İdman Nazirliyinin əməkdaşları Əliniyaz Mirzəyev və Pərvin Mehdiyev, Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin sədri Miraqil Seyidzadə, Şəmkir Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Elçin Cəfərov çıxış edərək yarışların və könüllülük hərəkatının mahiyyəti haqqında iştirakçıları məlumatlandırıb, onlara uğurlar arzulayıblar.

Ümumilikdə 76 şəhər və rayon komandasının iştirakı ilə keçirilən yarışlarda Astara, Bakı və Şirvan könüllülərindən ibarət komandalar ilk üç pillədə qərarlaşıblar.

TOKİO - 2020



# Tokio-2020-də qeydə alınanan rekordlar və “ilk”lər

*Dünyanın ən güclü idmançıları XXXII Yay Olimpiya Oyunlarında növbəti sınaqdan keçdilər. Bəşəriyyəti bürüyən pandemiya Oyunları bir il geriyə atsa da, idmançılar bu sınaqdan da uğurla keçdilər. Böyük problemlərlə təşkil olunan Tokio-2020 Yay Olimpiya Oyunlarında maraqlı nəticələr qeydə alındı. Oyunlar zamanı atletlərin göstərdiyi nəticələri diqqət mərkəzində saxlayan “Olimpiya dünyası”qəzeti bu sayında rekordlarla bağlı maraqlı məlumatları təqdim edir.*

## Həm qızıl medal, həm də yeni rekord

Tokio-2020 Yay Olimpiya Oyunlarında idmanın müxtəlif növlərində yeni rekordlar qeydə alındı. Olimpiadaya uğurlu nəticə üçün gələn idmançılar qızıl mükafatlarla yanaşı, əvvəlki çıxış etdikləri nəticələri ən azı Paris-2024-ə qədər əlçatmaz ediblər. Belə ki, atletikanın bir neçə növündə, eləcə də üzgüçülükdə rekordlar yenilənib. Ağırlıqqaldırmada da iki idmançı rekord nəticə göstərib.

| İdmançı | Ölkə | Növ | Rekord |
|---|---|---|---|
| 1. Karsten Varholm | Norveç | maneələrlə qaçış (400 m) | 45,94 |
| 2. Yulimar Rohas | Venesuela | üçtəkanla tullanma | 15,67 m |
| 3. Rayan Krauzer | ABŞ | nüvəitələmə | 23,30 m |
| 4. Sidni Maklaflin | ABŞ | maneələrlə qaçış (400 m) | 51,47 |
| 5. Kaleb Dressel | ABŞ | üzgüçülük, batterflyay (100 m) | 49,45 |
| 6. Şi Çjiyun | Çin | ağırlıqqaldırma 73 kq (iki hərəkətin cəmi) | 364 kq |
| 7. Laşa Talaxadze | Gürcüstan | ağırlıqqaldırma +109 kq (iki hərəkətin cəmi) | 488 kq |
| 8. Çanxun Çjan | Çin | Atıcılıq Tüfəng (25 m) | 466.0 |

## İtaliyanın Olimpiya zəfəri

XXXII Yay Olimpiya Oyunları İtaliya üçün daha uğurlu oldu desək, yanılmarıq. 1932-ci ildə Los Anceles şəhərində keçirilən X Yay Olimpiya Oyunlarında italiyalılar böyük nəticə ilə yadda qalmışdılar. Onlar yalnız 103 medal (41 qızıl, 32 gümüş, 30 bürünc) əldə edən ev sahiblərindən geri qalmışdılar. Apeninlilər 36 medal (12 qızıl, 12 gümüş, 12 bürünc) qazanaraq, tarixi nəticə əldə etmişdilər.

1960-cı ildə Romada keçirilən XVII Yay Olimpiya Oyunlarında ev sahibləri yenidən 36 medala (13 qızıl, 10 gümüş, 13 bürünc) yiyələnmişdilər. Həmin Olimpiadada “skuadra” yalnız 103 medal (43 qızıl, 29 gümüş və 31 bürünc) əldə edən SSRİ-dən və 71 medala (34 qızıl, 21 gümüş və 16 bürünc) sahib çıxan ABŞ yığmasından geri qalmışdı.

88 ildən sonra İtaliya yığması yeni bir nailiyyətlə diqqət mərkəzinə düşdü. Onlar Yaponiya paytaxtında 40 medala (10 qızıl, 10 gümüş, 20 bürünc) sahib çıxdılar. Bu “Skuadra”nın Olimpiya oyunlarındakı rekordu hesab olunur. Qeyd etmək lazımdır ki, Avropa təmsilçiləri atletikada aparıcı yığma komandaların üzvlərini qabaqlaya bildilər. Bu növdə onlar 5 qızıl medala yiyələndilər. Digər idman növlərində - velosiped, karate, avarçəkmə, yelkən idmanı və taekvondoda Olimpiya çempionlarından biri də italiyalı atletlər oldu.

## İlk dəfə bir yarışda iki idmançıya qızıl medal təqdim olundu

Tokio-2020 Yay Olimpiya Oyunlarında qeydə alınan nəticələr arasında hündürlüyə tullanma yarışı xüsusi diqqət mərkəzində oldu. Qətərli



Muta Barşim və italiyalı Canmarko Tamberi arasında sona qədər mübarizə hökm sürdü. Yekunda isə qərara alındı ki, hər iki idmançı eyni nəticə göstərdiyi üçün onların hər birinə qızıl medal təqdim olunsun. Belə ki, sifariş verilən 2,37 metr hündürlüyü üç idmançı maneəsiz tullana bildi. Barşim və Tamberi ilə yanaşı, belaruslu Maksim Nedosekov maneəni uğurla dəf edə bildi. Onların qalibi müəyyənləşdirmək üçün 2,39 metr hündürlüyü aşma cəhdi səmərə vermədi. Lakin əsas mübarizə Qətər və İtaliya təmsilçisi arasında olduğu üçün yarış təşkilatçıları onlara qızıl medal verməyi qərara aldılar. Belaruslu atlet isə Olimpiadanı bürünc medalla başa vurdu.

## 60 ildən sonra yenilənən nəticə

1952-ci ildə Helsinkidə keçirilən XV Yay Olimpiya Oyunlarında sovet idmançısı Mariya Qoroxovskaya böyük bir nəticə ilə yadda qalmışdı. O, mübarizə apardığı gimnastika növündə 7 medala yiyələnmişdi. Mariyanın bu rekordu 60 il əlçatmaz oldu. Artıq sovet idmançısının adı bu nəticəyə əsasən rekordlar kitabında tək deyil. Belə ki, avstraliyalı üzgüçü Emma Makkeon Tokio-2020-də bu uğuru təkrarlaya bildi. Olimpiadada çıxış edən “yaşlı qitə” yığmasının əldə etdiyi 46 medalın (17 qızıl, 7 gümüş, 22 bürünc) 4 qızıl və 3 bürünc medalı Emmanın payına düşür. Qeyd edək ki, o, əldə etdiyi medallarla yanaşı 50 metr məsafəyə sərbəst üsulla üzmədə Olimpiya rekordunun sahibi olub.

## Amerikanın ən titullu xanım idmançısı



Tokio-2020-də çıxış etdiyi növdə böyük uğur qazanan idmançılar az olmadı. Onların arasında ABŞ idmançısı Ellison Feliksin də adı var. Bu idmançı təmsil etdiyi ölkənin ən titullu atleti kimi tarixə düşdü. 18 yaşında Afina Olimpiadasında fəxri kürsünün ikinci pilləsində (200 m, qaçış) yer alan amerikalı atlet növbəti uğurunu Pekində qazanıb. 2008-ci ildə o, yeni nailiyyəti ilə diqqət mərkəzinə düşüb. Ellisson yarışları 1 qızıl (estafet, 4x400) və 1 gümüş (200 m) medalla tamamlayıb. ABŞ təmsilçisi üçün ən uğurlu olimpiada London-2012 olub. Belə ki, ölkəsinin ən güclü atleti tituluna yiyələnmək üçün o, böyük nəticələr əldə edib. Ellisson Feliks XXX Yay Olimpiya Oyunlarında 3 dəfə (200 m, estafet, 4x100, 4x400 ) finişi hamıdan qabaq keçib. Rio-2016 Yay Olimpiya Oyunlarında da xanım atlet ümidləri doğruldub. Onun əldə etdiyi iki qızıl (4x100, 4x400) və bir gümüş (400 m) medal ölkəsinin ümumilikdə medal sayını bir qədər də artırıb. Tokio-2020-də 35 yaşlı idmançının növbəti qələbələri onu ölkəsinin ən titutullu idmançısı etdi. 4x400 estafet yarışlarında o qızıl medala yiyələndi. 400 metr məsafəyə qaçışda isə ikinci yerlə kifayətləndi. Ola bilsin ki, bu olimpiada Ellisson üçün son olacaq. Əgər o 3 ildən sonra, 38 yaşında Paris Olimpiadasına qoşulsa, onun göstərəcəyi nəticə əlçatmaz olaraq qalacaq.

## Karelinin rekordunu yeniləyən kubalı

Tokio-2020 Yay Olimpiya Oyunlarında kubalı yunan-Roma güləşçisi Mixain Lopes dördqat Olimpiya çempionu adını qazanıb. 39 yaşlı pəhləvan Tokio-2020 Yay Olimpiya Oyunlarında 130 kq çəki dərəcəsində fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finalda Gürcüstan təmsilçisi Yakob Kacayaya qalib gəlib - 5:0. Bürünc medalları isə rusiyalı Sergey Semyonov və türkiyəli Rıza Kayaalp əldə edib. Qeyd edək ki, Mixain Lopes daha əvvəl Pekin-2008, London-2012 və Rio-2016 olimpiadalarında da qızıl medala yiyələnib. O, tarixdə ilk dəfə yunan-Roma güləşi üzrə dördqat Olimpiya çempionu olub. Lopesdən əvvəl ən titullu “klassik” güləşçi rusiyalı Aleksandr Karelin idi. Karelinin aktivində olimpiadalarda 3 qızıl və 1 gümüş medal var.



## İspaniyalı atlet 8-ci olimpiadasını 35-ci yerdə başa vurub



Tokio-2020 Yay Olimpiya Oyunlarında növbəti rekordçu Xesus Anhel Qarsiya olub. 52 yaşlı ispaniyalı atlet 50 km məsafəyə idman yerişində 35-ci yeri tutub. Bu, İspaniya təmsilçisinin 8-ci Olimpiadası olub.

Qarsiya atletikada 8 Olimpiya Oyunlarında iştirak edən ilk idmançı kimi tarixə düşüb. Debütü Barselona-1992-yə təsadüf edən idmançı bu müddətdə 1 qızıl, 2 gümüş, 2 bürünc əldə edib. Qeyd edək ki, olimpiadalarda iştirak sayında rekord kanadalı jokey İan Millerə məxsusdur. O, 10 dəfə bu yarışlarda iştirak edib.

*Hazırladı:*
*Anar Əhmədov*

— Olimpiya mükafatçılarımız —

# İrina Zaretska:
# “Qızıl medal üçün 1 saniyə çatmadı”

## *Orta məktəbi qızıl medalla, ali məktəbi qırmızı diplomla bitirən Olimpiya mükafatçısı*

***Onun idmana gəlişi qardaşının sayəsində olub. Yeniyetməlik yaşlarından iştirak etdiyi bütün yarışlarda mükafatçılar sırasında yer alıb. Hətta idmanla yanaşı, təhsilinə də mükəmməl səviyyədə yanaşıb. Bunun nəticəsi olaraq ali təhsilini qırmızı diplomla başa vurub. Anası onu gələcəkdə başqa sahədə görmək istəsə də, o, anasının bu istəyinə qarşı çıxaraq sona qədər özünə yaxın olan peşədə, idmanda qalmağa qərar verir. Lakin tale onu qarşıda karyerasının ən böyük sınağı ilə üz-üzə qoyur. O, gələcəyinin uğurlu səhifəsini açmaq üçün Azərbaycanı seçir.***

***Söhbət Tokio-2020 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Ukrayna əsilli karateçimiz İrina Zaretskadan gedir.***

***Olimpiadadan Bakıya qayıtdıqdan sonra I Avropa Oyunlarının qızıl mükafatçısı, Avropa çempionatının (2016, 2021) və IV İslam Həmrəyliyi Oyunlarının qalibi, dünya çempionatının qızıl medalçısı (2018) olan 25 yaşlı xanım idmançımızla əlaqə saxladıq. “Olimpiya dünyası” qəzetinə müsahibə verən xanım idmançımız ona ünvanlanan suallarımızı səmimi cavablandırdı. Olimpiya mükafatçımızla olan müsahibəni oxuculara təqdim edirik.***

***- İrina, əvvəlcə Sizi Tokio-2020 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı olmağınız münasibəti ilə təbrik edirik. Oyunlarda Azərbaycan komandasının son qızıl medal şansı idiniz. Bu sizin finaldakı çıxışınıza nə dərəcədə təsir göstərirdi?***

- Məqsədim hər bir idmançı kimi, Olimpiya Oyunlarında qızıl medal qazanmaq idi. Yəni həm Oyunlardan əvvəl, həm də həmin an yalnız birincilik haqda düşünürdüm. Təbii ki, Olimpiya Oyunlarında Azərbaycan millisinin hər üç finalçısı qızıl medal əldə etsəydi, bu daha sevindirici və qürurverici olardı. Düşünürəm ki, bu, həqiqətən də, tarixi bir hadisəyə çevrilərdi. Əslində, hər birimiz bunu etməyə qadir idik. Lakin bu idmandır. Burada həm məğlubiyyət, həm də, qələbə olur. Hər birimiz Olimpiya Oyunlarının ən yüksək pilləsinə qalxmağı arzu edirdik. Heç bir idmançı istəməz ki, finalda məğlub olsun. Amma təəssüf ki, həmin gün şans bizim tərəfimizdə olmadı. Son saniyələrə qədər döyüşdüm. Hətta sonda Avropa Oyunlarındakı öz həlledici zərbəmi də endirdim. Lakin mənə qızıl medal üçün 1 saniyə çatmadı.

***- Gümüş medalın sahibi olduqdan sonra sevincinizi ilk olaraq kiminlə bölüşdünüz?***

- Final görüşümdən dərhal sonra həyat yoldaşım mənimlə əlaqə saxlayaraq təbriklərini çatdırdı və sevincimə şərik oldu. O, öz ailəsi və dostları ilə birgə mənə gün ərzində televiziya vasitəsi ilə dəstək olurdu. Daha sonra atam zəng edərək mənə məyus olmamağı, bu medalın çox böyük əhəmiyyəti olduğunu və hər kəsin onu əldə edə bilmək gücünün olmadığını dedi. Buna görə də, mənimlə qürur duyduğunu bildirdi.

***- İrina, istərdik ki, bir qədər keçmişə qayıdaq. Oxucularımıza bir az kiçik vaxtlarınızdan danışın. Uşaqlığınızı necə xatırlayırsınız?***

- Uşaqlığım sözün əsl mənasında məşq zalında keçib. Üç yaşımdan karate ilə məşğul olmağa başlamışam. Həmin vaxt böyük qardaşım karate məşqlərinə gedirdi. Kiçik yaşlarımdan qardaşım kimi ağıllı, güclü olmaq istəyirdim. Buna görə də, onun hər bir addımını, hərəkətini təkrarlamağa çalışırdım. Günlərin birində isə üç yaşlı kiçik bir qız valideynlərinə karate məşqlərinə getmək istəyini bildirir. Mənim bu istəyim valideynlərimi təəccübləndirdi. Onlar bunun sadəcə, ötəri bir həvəs olduğunu və bir neçə həftə davam edəcəyini düşünürdülər. Lakin elə alındı ki, bütün həyatım karate ilə bağlı oldu.

***- Belə demək olarsa, qardaşınız sayəsində idmançı olmusunuz.***

- Bəli, bunu əminliklə demək olar ki, idmanla məşğul olmağa qardaşımın sayəsində başlamışam. Zamanla məşq etmək, nailiyyətlər qazanmaq xoşuma gəldi. Bu, mənim hobbim, işim və ümumilikdə isə həyat tərzimə çevrildi. Hər səhər demək olar ki, gözlərimi açan kimi məşqə qaçırdım. Bu, mənə sözün əsl mənasında zövq verirdi. Yəqin ki, insan işini sevərək, həvəslə görəndə yüksək nəticələr əldə edir. Onu da bildirim ki, məni məşqlərə, karateyə bağlayan səbəblərdən biri də iştirak etdiyim bütün yarışlarda mükafatçı olmağım idi. Yeniyetmə yaşımadək iştirak etdiyim hər bir yarışda ilk üçlüyə düşürdüm. Təbii ki, bu da məni daha çox çalışmağa, məşq etməyə və addım-addım irəli getməyə ruhlandırırdı.



***- Maraqlıdır, qardaşınız hər bir yarışdan medal gətirən, ailənin idmançı qızına çevrilən bacısını qısqanmırdı?***

- Əvvəlcə onu qeyd edim ki, hər bir ailənin ikinci övladı doğulanda böyük uşaqların onu qısqandığı kimi qardaşım da məni qısqanırdı. O, hətta oyuncaq qarşılığında məni qonşumuza dəyişmək istəyirdi (gülür). Lakin indi biri-birimizə böyük dəstək oluruq.

***- İdmanda yeni-yeni addımladığınız dövrdə 25 yaşınızda Olimpiya Oyunlarının gümüş medalçısı olacağınızı düşünürdünüzmü?***

- Düzünü deyim ki, mən kiçik yaşımdan çoxməqsədli biri olmuşam. Bu yaxınlarda anam mənə kiçik vaxtlarımla bağlı maraqlı bir hekayə danışdı. Belə ki, kiçik yaşımda anama Olimpiya çempionu olmaq istəyimi deyirdim. Anam isə karatenin Olimpiya Oyunlarının proqramına daxil olmadığını və bunun üçün mənim idman növünü dəyişməli olduğumu bildirdi. Lakin karateni çox sevdiyim üçün məhz bu idman növü üzrə Olimpiya çempionu olmaq istəyimi deyirdim. Nəhayət, demək olar ki, 20 ildən sonra karate Olimpiya Oyunlarının proqramına daxil edildi və mən bu şansdan istifadə etdim. Demək olar ki, hər bir halda uşaqlıq arzuma çatdım.

***- Qardaşınızdan başqa ailə üzvlərinizdən kimsə idmanla məşğul olur?***

- Anam idman gimnastikası ilə məşğul olub. Müxtəlif turnirlərin qalib və mükafatçısı adını qazanıb. Atam isə sambo və bir neçə döyüş növləri ilə məşğul olub. Lakin bəzi səbəblərə görə karyeralarını davam etdirməyiblər.

***- Məşğul olacağınız peşəni özünüz seçmisiniz. Bəs valiyenləriniz Sizi hansı peşə sahibi kimi görmək istəyirdilər?***

- Əslində, anam mənim idmandakı şanslarımı yüksək qiymətləndirmirdi. O, mənim məktəbi əla qiymətlərlə bitirməyimi, yüksək səviyyəli ali təhsil ocağına qəbul olmağımı və yaxşı bir işə yiyələnməyimi istəyirdi. Bir sözlə, anam mənə sakit və standart həyat düşünürdü. İdmanda sürətlə irəliləməyim və yüksək nailiyyətlər qazanmağım anamı çox təəccübləndirdi. Universitetə qəbul olduqdan sonra isə iki seçim arasında qaldım. Nəhayət, valideynlərimə əsas vaxtımı idmana sərf edəcəyimi, ali təhsillə isə imkan olduğu halda məşğul olacağımı bildirdim. Onlar mənim seçimimə hörmətlə yanaşıb, qərarımı qəbul etdilər. Lakin buna baxmayaraq, mən hər zaman dərslərimdən yüksək qiymətlər alırdım. Qeyd edim ki, orta məktəbi qızıl medal, ali məktəbi isə qırmızı diplom ilə bitirmişəm. Orta və ali məktəbdə fərqlənməyimə baxmayaraq, ruhuma yaxın olan sahə təbii ki, idman olub. Nəticədə anamın mənə arzuladığı taleyin tam əksini yaşayıram (gülür).

***- Ananızın arzusunu həyata keçirmədiyinizə görə sizdən inciməyib?***

- Keçmişdə yaşadığımız fikir ayrılığına baxmayaraq, hazırda anam mənim ən sadiq pərəstişkarlarımdan biridir. Hər hansı bir yarışda uğursuzluqla rastlaşanda anam məni demək olar ki, hər kəsdən çox ruhlandırır. O, həmçinin karatenin qaydalarını əzbərdən bilir, bütün onlayn yayımları izləyir, mənim hər bir rəqibimi tanıyır və reytinq cədvəlimi yaxından izləyir. Hesab edirəm ki, bu, idmançı üçün valideynləri tərəfindən çox böyük dəstəkdir.



***- Maraqlıdır, Tokio Olimpiadasında qazandığınız yüksək nailiyyətlərdən sonra ananızın buna reaksiyası necə oldu?***

- Düzdür, anam gələcəkdə yaxşı iş sahibi olmağım üçün mənə daha çox təhsilə vaxt ayırmağımı məsləhət görürdü. Lakin zamanla bu sahədə uğur qazanmağa başlayanda o, məni hər kəsdən çox dəstəkləyirdi. Anam məqsədimin yalnız qızıl medal olduğunu, hər zaman birinci olmaq və ən yaxşısı olmaq istəyimi bilir. Final qarşılaşmasında lazımi vaxtda xüsusi texnikamı işlədə bilmədim və gümüş medal qazandıqdan sonra kameralara “ana, ağlama, yaxşı?!” sözlərini söylədim. Bilirdim ki, anam mənim üçün çox həyəcan keçirir və o da mənim qədər qızıl medalı əldən verməyimə məyus olur. Lakin yarışdan sonra insan qazandığı medalın dəyərini daha da yaxşı dərk edir. Anam da mənimlə əlaqə saxlayaraq, təbrik etdi və mənim böyük uğur qazandığımı dedi.

***- Sirr deyilsə, idman yarışlarından əldə etdiyiniz ilk qazanc nə qədər olub və onu nəyə xərcləmisiniz?***

- Əvvəlcə onu deyim ki, mənim üçün öz zəhmətimlə qazandığım qazanc çox qiymətlidir. Yarışlardan pul mükafatı almağa başlayanda, valideynlərimdən xərclik almadığıma görə, özümlə qürur duyurdum. Hər zaman çalışmışam ki, qazancımdan ailəmə və yaxınlarıma bacardığım qədər kömək edim, hədiyyələr alım, onları sevindirim. Yadıma gəlir ki, ilk qazancımdan özümə telefon almışdım. Onu mənim üçün xüsusi edən isə valideynlərimin deyil, şəxsi qazancımla almağım idi.

***- Belə uğurlu idman karyerasına sahib biri, heç qadağalarla rastlaşıbmı?***

- İdman karyeramda mənə heç kim, heç vaxt qadağa qoymayıb. Yəni lazımi qədər məşq edib, yüksək nailiyyətlər qazanmaq üçün mənə heçnə mane olmayıb. Lakin karyeramın dönüş nöqtəsi kimi Ukrayna yığmasından Azərbaycan milli komandasına keçid mərhələsini qeyd edə bilərəm. Bu, həqiqətən də, çox ciddi addım idi. Düzdür, ola bilər ki, bəziləri üçün mənim bu addımım hələ də qınaq obyektidir. Lakin digər insanlar mənə qarşı olan haqsızlığı görüb və mənə dəstək olur.

**“Bu addımdan gələcək karyeram, həyatım asılı idi”**

***- İdman karyeranız ərzində ən ciddi sınağınız nə olub?***

- Ukraynada çıxış etdiyim dövrdə beynəlxalq yarışlardakı iştirak xərclərimi məşqçim ödəyirdi. Lakin maliyyə böhranı zamanı məşqçim artıq bu öhdəliyi üzərinə götürə bilmədi. Federasiya isə məni maliyyələşdirməkdən imtina etdi. Həmin vaxt mənim artıq kifayət qədər nailiyyətim var idi. Bu, həqiqətən də, mənim üçün karyeramın dönüş nöqtəsi oldu. Çünki hansı addımı atacağımı və məni nələrin gözlədiyini bilmirdim. Ən çətin anda Azərbaycan millisindən mənə kömək etmələri barədə təklif aldım. Düzdür, biz çox düşündük, çünki bu addımdan gələcək karyeram, həyatım asılı idi. Lakin bunlara baxmayaraq, həyatımın ən düzgün qərarını verdim.

***- Bəs daha sonra bu qərardan peşmançılıq hissləri keçirdiyiniz anlar oldu?***

- Xeyr. Azərbaycan milli komandasının tərkibində qazandığım uğurlar çox böyükdür. Mən burada karyeramın ən böyük uğurlarına nail olmuşam. Bunun üçün Azərbaycana hər zaman minnətdar olacağam və hər zaman dediyim kimi, sizin fəxriniz olmağa çalışacağam. Çox şadam ki, qismətim məhz belə gətirdi. Hesab edirəm ki, insan qəbul etdiyi heç bir qərardan peşman olmamalıdır. Əgər bir şansın varsa, ondan mütləq istifadə etmək lazımdır. Nəyisə etməyib peşman olmaqdansa, onu edib peşman olmaq daha yaxşıdır.

***- Azərbaycan idmançılarından hansıları ilə səmimi dost münasibətləri yaratmısınız?***

- Karate üzrə yığma komandamızın bütün üzvləri ilə dost münasibətim var. Xüsusən də, Rafael Ağayevlə. Hətta onunla ad günlərimiz də eyni günə - martın 4-nə təsadüf edir. Rafael Ağayevlə eyni komandada yer almaq mənim üçün ikiqat xoşdur. Azərbaycan idmanının əfsanəsini kiçik yaşlarımdan özümə kumir olaraq seçib, daha sonra onunla eyni komandanı bölüşmək çox qürurvericidir. Həmçinin digər idmançılar ilə də münasibətim yaxşıdır. Güləş komandasından isə həmyerlim Mariya Stadniklə çox yaxşı münasibətim var.

***- İrina, bir neçə ildir ki, ailəlisiniz. Sizcə, idmançı xanım üçün ailə həyatının müsbət və mənfi cəhətləri nələrdir?***

- Müsbət cəhət yanında hər zaman sənə dəstək olan birinin olmasıdır. O, daha da yüksək nailiyyətlər əldə etməyim üçün məni hər zaman ruhlandırır. Bununla yanaşı, həyat yoldaşım həm psixoloqum, həm də tənqidçimdir. Mənfi cəhətlərə gəldikdə isə, bu, təbii ki, qadınlar üçün heç vaxt bitməyən ev işləridir (gülür).

Qeyd edim ki, həyat yoldaşım karate üzrə Ukrayna millisinin keçmiş üzvüdür. O, 2009-cu ildə yeniyetmələr arasında Avropa çempionu olub. Məhz buna görə də, o, insanın məşqlərdə, yarışlarda necə yorulduğunu yaxşı bilir. Bu səbəbdən də, bitirə bilmədiyim ev işlərinə görə evimizdə heç vaxt münaqişə olmayıb.

***- İnsan arzularla yaşayıb-yaradır. Ən riskli arzunuz nədir?***

- Əslində, mən paraşütlə tullanma və bu kimi hissləri keçirməyi çox istəyirəm. Lakin hündürlükdən qorxduğum üçün bu addımı atmağa risk etmirəm.

***- Hazırda Bakı şəhərindəsiniz. Qarşıdakı planlarınız nədən ibarətdir?***

- Hələ ki, planımda bir az dincəlmək, gərgin məşqlərə fasilə vermək var. Daha sonra isə yenidən məşqlərə start verəcəyik. Belə ki, bu ilin noyabr ayında dünya çempionatında iştirak edəcəyik. Hazırda isə Bakıda dincəlirəm, yaxın dostlarla qələbə sevincimizi bölüşürük.

***- İrina, səmimi müsahibə üçün Sizə təşəkkür edir və gələcək karyeranızda yeni uğurlar arzulayırıq.***

- Çox sağ olun. Həqiqətən də mən bütün yarışlarda Azərbaycan xalqının dəstəyini yaxından hiss edirəm. Azərbaycanın idman şərəfini qoruyub yüksək nailiyyət əldə edəndə, insanların mənimlə fəxr etmələrini demələri mənim üçün fəxrdir. İdmançı üçün ən yüksək nailiyyət insanlar tərəfindən sevilməsi və qiymətləndirilməsidir.

*Türkay Niftəliyeva*

TOKİO - 2020





# XXXII Yay Olimpiya Oyunlarında yadda qalan anlar



























# FUTBOL

## Azərbaycan Premyer Liqasında yeni mövsüm başladı

Futbol üzrə Azərbaycan Premyer Liqasında 2021/2022 mövsümünə start verilib. Turun açılış oyununda “Sabah” və “Səbail” komandaları üz-üzə gəliblər. Masazırdakı “Bank Respublika Arena”da təşkil olunan görüş qonaqların 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Matçda yeganə qol ilk hissədə vurulub. “Dənizçilər”in heyətində yeni transfer Yurgen Qoxa fərqlənib. Albaniyalı müdafiəçi 30-cu dəqiqədə qapını dəqiq nişan alıb. Bununla da ardıcıl 6-cı mövsümdə ilk qolu qonaq komanda vurub. Albaniyalı müdafiəçi son 6 ildə ilk qol müəllifi olan birinci legionerdir. Bunadək son 5 mövsümdə yerli oyunçular ilk qola imza atıb. Matçın 89-cu dəqiqəsində meydan sahiblərinin yarımmüdafiəçisi Şakir Seyidov hesabı bərabərləşdirsə də, qol oyundankənar vəziyyətdən vurulduğu üçün qeydə alınmayıb. Görüşün əsas vaxtına əlavə olunmuş 3-cü dəqiqədə isə “Sabah” azlıqda qalıb. Coy-Lans Mikels ikinci sarı vərəqəni görərək, meydandan qovulub. Beləliklə, “Səbail” klubu turnirə qələbə ilə başlayıb. Günün digər oyunu “Keşlə” və “Sumqayıt” komandaları arasında olub. “ASK Arena”dakı görüşdə qonaqlar 2:0 hesabı ilə qələbə qazanıblar. Oyunda hər iki qolu “gənclik şəhəri” təmsilçisinin yarımmüdafiəçisi Rəhim Sadıxov vurub. O, müvafiq olaraq 83-cü və 89-cu dəqiqələrdə fərqlənib. Görüşün əvvəlində “Sumqayıt” ciddi itki ilə üzləşib. Qapıçı Aydın Bayramov zədələnərək, meydanı tərk edib. Onu Tərlan Əhmədli əvəzləyib. Səfərdə “Keşlə”yə qalib gələn “Sumqayıt” klubu da mövsümə uğurlu start verib. Turun ikinci oyun günündə “Zirə” komandası “Qarabağ”ı qəbul edib. Zirə Olimpiya İdman Kompleksinin stadionunda təşkil olunan matç 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Baş hakim Rauf Cabbarovun idarə etdiyi oyunda hesab 18-ci dəqiqədə açılıb. Ağdam təmsilçisi İsmayıl İbrahimlinin qolu sayəsində hesabda irəli çıxıb. İlk hissədə başqa qol vurulmayıb. Matçın 50-ci dəqiqəsində Təmkin Xəlilzadə penaltini dəqiq yerinə yetirməklə tarazlığı bərpa edib.



Birinci tura “Neftçi” və “Qəbələ” komandalarının oyunu ilə yekun vurulub. “Bakcell Arena”da əyalət təmsilçisini qəbul edən ölkə futbolunun flaqmanı qələbə qazana bilməyib. Görüş 2:2 hesabı ilə başa çatıb. İlk hissə qolsuz yekunlaşıb. 55-ci dəqiqədə meydan sahiblərinin heyətində Fəhmin Muradbəyli hesabı açıb. 67-ci dəqiqədə “qırmızı-qaralar”ın yeni transferi İsnik Alimi penaltini dəqiq yerinə yetirib. Matçın 76-cı dəqiqəsində isə “Neftçi”nin təcrübəli müdafiəçisi Voislav Stankoviç Emin Mahmudovun ötürməsindən sonra başla topu qapıdan keçirib. Görüşün 84-cü dəqiqəsində Ülvi İsgəndərov növbəti dəfə tarazlığı bərpa etməyə müvəffəq olub. Beləliklə, ilk turdan sonra aktivində 3 xalı olan “Sumqayıt” və “Səbail” klubları turnir cədvəlinə şərikli liderlik edirlər. “Qəbələ”, “Neftçi”, “Zirə” və “Qarabağ” bir xalla 3-6-cı yerləri bölüşürlər. Aktivində xal olmayan “Sabah” və “Keşlə” isə sonuncu pillədə qərarlaşıblar.



## “Qarabağ” pley-offa vəsiqə qazandı

Azərbaycanın “Qarabağ” klubu UEFA Konfrans Liqasının pley-off mərhələsinə vəsiqə qazanıb. Ağdam təmsilçisi ötən həftə Tofiq Bəhramov adına Respublika stadionunda Kiprin AEL komandasını məğlub etməklə buna nail olub. Estoniyalı baş hakim Kristo Toverin idarə etdiyi oyunda “Qarabağ” minimal hesablı qələbəyə sevinib - 1:0. Matçın 87-ci dəqiqəsində Kadi fərqlənməklə komandasını turnirin növbəti mərhələsinə daşıyıb.

Qeyd edək ki, Kiprdəki ilk matçda 1:1 hesablı heç-heçə qeydə alınıb. İki oyunun nəticəsinə görə, “Qarabağ” klubu UEFA Konfrans Liqasının pley-off mərhələsinə vəsiqə əldə edib. Komandamızın bu mərhələdəki rəqibi Şotlandiyanın “Aberdin” klubu olacaq. Ağdam təmsilçisi ilk oyununu avqustun 19-da Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda keçirəcək. Matçı sloveniyalı Rade Obrenoviç idarə edəcək. Ona yan xətt hakimləri Yure Prorotnik və Aleksandr Kasapoviç köməklik göstərəcək. Dördüncü hakim funksiyasını isə Asmir Saqrkoviç yerinə yetirəcək. Bu komandalar arasında cavab oyunu isə avqustun 26-da Şotlandiyada oynanılacaq.

## Namik Ələskərov “Bursaspor”da

“Neftçi” klubu futbolçusu Namik Ələskərovun Türkiyənin “Bursaspor” klubu ilə müqavilə imzalaması ilə bağlı bəyanat yayıb. Paytaxt təmsilçisinin rəsmi saytında yer alan bəyanatda deyilir: “Neftçi” futbolçumuz Namik Ələskərovun “Bursaspor”la rəsmi müqavilə imzalanması ilə bağlı verdiyi elanla artıq tanışdır. Hesab edirik ki, futbolçumuz heç bir əsas olmadan klubu ilə birtərəfli şəkildə müqaviləyə xitam verib. Bunu əsas götürərək, “Neftçi” PFK futbolçusu Namik Ələskərova və müqavilə imzaladığı Türkiyə klubuna qarşı gecikmədən hüquqi proseslərin başlanması ilə əlaqədar vəkillərə tapşırıq verib”. Xatırladaq ki, ötən həftə Türkiyənin I liqasında çıxış edən “Bursaspor” klubu Azərbaycan millisinin 26 yaşlı futbolçusu Namik Ələskərovu transfer etdiyini açıqlamışdı. Bursa təmsilçisi bununla bağlı rəsmi tvitter səhifəsində video paylaşmışdı.




Qeyd edək ki, Namik Ələskərov 2017-ci ildən “Neftçi”də çıxış edirdi. O, 2020/2021 mövsümündə “ağ-qaralar”ın heyətində Azərbaycan Premyer Liqasının qalibi olub. Yarımmüdafiəçi həmin mövsüm 19 qolla çempionatın bombardiri adını da qazanıb.

## *“Neftçi” Avropa Liqasında da mübarizəni dayandırdı*

Ötən həftə UEFA Avropa Liqasında üçüncü təsnifat mərhələsinin cavab görüşləri keçirilib. Azərbaycanın turnirdəki yeganə təmsilçisi Bakının “Neftçi” klubu Finlandiyanın paytaxtı Helsinkidəki “Bolt Arena”da HİK komandasının qonağı olub. Almaniyalı referi Deniz Aytekinin idarə etdiyi oyunda Finlandiya təmsilçisi 3:0 hesabı ilə qələbə qazanıb. Matçda hesab 46-cı dəqiqədə açılıb. Riku Riski fərqlənib. On dörd dəqiqə sonra Roope Riski “Neftçi”nin qapısına təyin olunmuş penalti zərbəsini dəqiq yerinə yetirib. Görüşün 89-cu dəqiqəsində Roope Riski yenidən fərqlənib və bu, matçda vurulan sonuncu qol olub. Beləliklə, iki oyunun nəticəsinə görə, “Neftçi” klubu UEFA Avropa Liqasında mübarizəni dayandırıb. Xatırladaq ki, bu komandalar arasında avqustun 3-də Bakıda keçirilən ilk oyun 2:2 hesablı heç-heçə ilə yekunlaşıb.

Bu məğlubiyyətdən sonra UEFA-nın ikinci nüfuzlu klub turnirində mübarizəni dayandıran “Neftçi” komandası Konfrans Liqasının pley-off mərhələsində iştirak edəcək. “Ağ-qaralar” Konfrans Liqasının qrup mərhələsinə düşmək üçün İsrailin “Makkabi” (Hayfa) komandası ilə qarşılaşacaq. Son Azərbaycan çempionu ilk oyununu Bakıda “Bakcell Arena”da keçirəcək. Görüşdə ədaləti fransalı Uilli Delajod qoruyacaq. Laysmanlar Mehdi Rəhmani, Ervan Kristof Fincin, dördüncü hakim isə Tomas Leonard olacaq. Bu komandalar arasında cavab oyunu avqustun 26-da İsraildə olacaq.



## *Azərbaycan UEFA-nın reytinq cədvəlində 30-cu pillədə yer alıb*

Avrokuboklarda üçüncü təsnifat mərhələsinin cavab görüşlərindən sonra UEFA-nın yeni reytinq siyahısı açıqlanıb. Azərbaycanın aktivinə cəmi 0,250 xal yazılıb. Həmin xalı ölkəmizə “Qarabağ” Avropa Konfrans Liqasının üçüncü təsnifat mərhələsindəki cavab görüşündə Kiprin AEL komandası üzərində 1:0 hesablı qələbə sayəsində qazandırıb. Bununla da cari mövsümdə Azərbaycanın xal sayı 1,500-ə çatıb. Son 5 mövsümdə ümumi xal sayı 14,125 olan Azərbaycan hazırda 30-cu pillədə qərarlaşıb. Polşa 14.250 xalla 29-cu, Slovakiya 14.000 xalla 31-ci pillədədir.

## *“Çelsi” ikinci dəfə UEFA Super Kubokunun qalibi oldu*

Futbol üzrə UEFA Super Kubokunun qalibi müəyyənləşib. Şimali İrlandiyanın paytaxtı Belfastda keçirilən oyunda İngiltərənin “Çelsi” və İspaniyanın “Vilyarreal” klubları üz-üzə gəlib. “Uindzor Park” stadionunda təşkil olunan oyunun əsas vaxtı 1:1 hesabı ilə başa çatıb. Rusiyalı FIFA referisi Sergey Karasyov idarə etdiyi qarşılaşmada hesab 27-ci dəqiqədə açılıb. “Zadəganlar”ın heyətində Hakim Ziyeş komandasını hesabda irəli çıxarıb. Matçın 73-cü dəqiqəsində “Vilyarreal” Jerar Morenonun sayəsində hesabı bərabərləşdirib. Əlavə vaxtda da qalib müəyyənləşmədiyi üçün penaltilər seriyasına müraciət olunub. Penalti zərbələrini daha dəqiq yerinə yetirən “Çelsi” 6:5 hesabı ilə qələbə qazanaraq, tarixində ikinci dəfə UEFA Super Kubokunun qalibi olub. Qeyd edək ki, “Çelsi” klubu ilk dəfə bu titula 1998-ci ildə İspaniyanın digər təmsilçisi “Real Madrid” üzərində 1:0 hesablı qələbə sayəsində nail olublar.



Dünya-idmanı




# Olimpiya çempionunun medalı dəyişdiriləcək

Tokio-2020 Yay Olimpiya Oyunlarında çempion olmuş softbol üzrə Yaponiya millisinin üzvü Miu Qotonun medalı dəyişdiriləcək. Buna səbəb idmançının koronavirusa yoluxma təhlükəsidir. Qoto yarışdan sonra yaşadığı Naqoya şəhərinə qayıdıb. Şəhər meri Takasi Kavamura qarşılama mərasimində 20 yaşlı idmançının medalını öz boynundan asaraq, onu dişləyib və şəkil çəkdirib.

Bundan başqa, Kavamura qadın idmançının ünvanına yersiz ifadələr işlədib və onunla romantik münasibət qurmağın mümkün olub-olmadığını soruşub. Bundan sonra Naqoya meriyasına şəhər rəhbərinin hərəkətləri ilə bağlı 7 mindən çox şikayət daxil olub. O, pandemiya zamanı karantin qaydalarını pozmaqda, eləcə də təcavüzdə ittiham olunurdu. Kavamura artıq etdiyi hərəkətə görə üzr istəyib. O, Yaponiya Olimpiya Komitəsinin rəhbəri Yasuhiro Yamasita ilə də danışıb və yeni qızıl medalın pulunu ödəmək istədiyini bildirib.

# Messinin göz yaşlarını sildiyi salfet hərraca çıxarılıb



Fransanın PSJ klubunun yeni transferi Lionel Messinin İspaniyanın "Barselona" klubu ilə vidalaşarkən göz yaşlarını sildiyi salfet hərraca çıxarılıb. Salfetə 1 milyon ABŞ dolları qiymət qoyulub. Xatırladaq ki, argentinalı futbolçu avqustun 8-də təşkil olunmuş mətbuat konfransında çıxış edərkən göz yaşlarını saxlaya bilməyib. 34 yaşlı hücumçunun özünə gəlməsi üçün təqribən 1 dəqiqə vaxt lazım olub.

olimpnews.az - sizin saytınız




# Fransalı atlet Tokio-2020-də su şüşələrini bilərəkdən aşırıb

Fransalı atlet Morhad Amduni Tokio-2020 Yay Olimpiya Oyunlarında marafon qaçışı zamanı qalmaqallı hərəkəti ilə diqqət çəkib. O, qaçış zolağının kənarında idmançılar üçün qoyulmuş su şüşələrini bilərəkdən aşırıb, sonuncu şüşəni isə özü götürüb. 33 yaşlı atlet bu yolla rəqiblərini çətin vəziyyətə salmaq və mübarizədən kənarlaşdırmaq istəyib. Çünki yarış 30 dərəcə istidə keçirilib. Həmin vaxt nisbi rütubət isə 80 faiz təşkil edib. Amduninin hərəkəti nəticəsində bir neçə idmançı qaçış zolağını tərk etmək məcburiyyətində qalıb. Qeyd edək ki, marafon yarışında qızıl medalı keniyalı Eliud Kipçoq qazanıb.




# ADBTİA-nın professoru dünyasını dəyişib



Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) sabiq "Güləşmə və onun metodikası" kafedrasının müdiri İsmayıl Abdul-Qədirov avqustun 16-da vəfat edib.

Azərbaycan Respublikasının Əməkdar Bədən Tərbiyəsi vəİdman Xadimi, "Tərəqqi" medalçısı, "Şöhrət" ordenli, Azərbaycan Respublikasının Əməkdar məşqçisi İsmayıl Qafaroğlu Abdul-Qədirov 1936-cı il fevralın 15-də anadan olub. İ.Abdul-Qədirov idmana 14 yaşında gəlib. 1950-ci ildə "Dinamo" idman cəmiyyətində yunan-Roma güləşi ilə məşğul olmağa başlayıb.

Bir neçə ildən sonra özünü məşqçilik sahəsində sınayan İsmayıl müəllim 1965-1968-ci illərdə məktəblilərdən ibarət yığma komandanın məşqçisi olub. Onun yetirmələri 1967-ci ildə SSRİ məktəblilərinin 10-cu yubiley Sparakiadasında 3-cü yerə layiq görülüb. Həmin vaxt İ.Abdul-Qədirov artıq ali təhsilli idman mütəxəssisi idi. 1950-ci ildə Azərbaycan Bədən Tərbiyəsi və İdman İnstitutunu bitirdikdən sonra institutun "Güləş və onun metodikası" kafedrasında işləməyə başlayıb.

1961-ci ildə "Bədən tərbiyəsi və idman əlaçısı" adına layiq görülən İsmayıl müəllim, həmin il güləş üzrə respublika, 5 il sonra isə ümumittifaq dərəcəli hakimliyə yüksəlib. 1980-1990-cı illərdə İsmayıl müəllimin elmi-pedaqoji fəaliyyəti özünü daha qabarıq büruzə verib. Bununla belə, İsmayıl müəllim məşqçilik fəaliyyəti dövründə 25-dən artıq idman ustası, 50-dən çox idman ustalığına namizəd hazırlayıb.

1980-ci ildən başlayaraq, çalışdığı kafedraya rəhbərlik edən İsmayıl Abdul-Qədirov 10 il bu vəzifəni daşıdıqdan sonra, institutun qiyabi fakültəsinin dekanı vəzifəsinə təyin edilib. 1991-ci ildə elmi-pedaqoji fəaliyyəti nəzərə alınaraq, ona dosent elmi dərəcəsi verilib. 2009-cu ildən isə bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası kafedrasının professoru seçilib. İsmayıl müəllim 30 dərslik və tədris vəsaitinin müəllifi olub.

A.Abdul-Qədirovun Azərbaycan idmanı, idmançı kadrların yetişdirilməsi sahəsindəki uzunmüddətli və məhsuldar əməyi dəfələrlə ümumittifaq və respublika idman komitələri tərəfindən diplom və fəxri fərmanlarla qeyd olunub. 1990-2002-ci illərdə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü olub.

Allah rəhmət eləsin!

***Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası***

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Həsənağa Rzayevə, anası

**Sürayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

Azərbaycan Basketbol Federasiyasının Rəyasət Heyəti Həsənağa Rzayevə, anası

**Sürayə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19